**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədrinin " 24 "dekabr 2014-cü il tarixli 358K № li əmri ilə təsdiq edilmişdir**

# VƏZİFƏ TƏLİMATI

| | |
|---|---|
| **Dövlət orqanının adı:** | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya |
| **Şöbənin adı:** | İnsan resurslarının idarəedilməsi və dövlət qulluğuna kadrların seçilməsi şöbəsi |
| **Sektorun adı** | İnsan resurslarının idarəedilməsi sektoru |
| **Vəzifənin adı:** | aparıcı məsləhətçi |
| **Vəzifə maaşı:** | 510 manat |
| **Vəzifə təsnifatı:** | inzibati vəzifələrin 5-ci təsnifatı |
| **İş yerinin ünvanı:** | Bakı şəhəri, Nərimanov rayonu, K.Rəhimov küçəsi, 874-cü məhəllə |
| **Bilavasitə tabe olduğu şəxs:** | şöbə müdiri və müdir müavini |
| **Qulluq funksiyaları:** | – İnsan resurslarının idarəedilməsi sahəsində vahid dövlət siyasətinin formalaşmasına və bu siyasətin həyata keçirilməsinə dair təkliflərin hazırlanması;<br>– dövlət qulluğunda insan kapitalı və insan potensialının artırılması ilə bağlı nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi;<br>– dövlət qulluğunda insan resurslarının idarəedilməsi problemlərinə dair tədqiqatların aparılmasında iştirak edilməsi, təhlillər və araşdırmaların aparılması;<br>– insan resurslarının idarəedilməsi sahəsində öyrənilmiş beynəlxalq təcrübənin tətbiqi ilə əlaqədar təkliflərin hazırlanması;<br>– təlim tələbatlarının müəyyənləşdirilməsi və dövlət qulluqçuları üçün təlimlərin keçirilməsi;<br>– ehtyat kadrların idarə edilməsi işinin təşkil edilməsi və bu sahədə təkliflərin hazırlanması;<br>– Dövlət Qulluqçuları Reyestrinin aparılmasında iştirak etmək;<br>– vətəndaşlardan və təşkilatlardan daxil olan müraciətlərə baxılması. |
| **Təhsil və ixtisas tələbləri:** | hüquqşünaslıq, beynəlxalq hüquq, beynəlxalq münasibətlər, psixologiya, tarix, politologiya, fəlsəfə, jurnalistika, sosiologiya, dilşünaslıq, filologiya, regionşünaslıq və iqtisadiyyat və idarəetmə ixtisas istiqamətləri üzrə ali təhsil |
| **Staja dair tələb:** | Yoxdur |
| **Kompüter biliklərinə dair tələblər:** | (MS WINDOWS, MS OFFICE, INTERNET və s.) – orta səviyyədə |
| **Xarici dil bilikləri:** | rus dili (orta səviyyədə), ingilis dili (orta səviyyədə) |
| **Təşkilatçılıq səriştəsi:** | yüksək səviyyədə |
| **Problemi həll etmək səriştəsi:** | orta səviyyədə |
| **Qərarvermə qabiliyyəti:** | orta səviyyədə |
| **Ünsiyyət qabiliyyəti:** | yüksək səviyyədə |

**Qeyd:** "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən bu vəzifə müsabiqə və ya müsahibə yolu ilə tutulur.